**Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin Şirvan Şəhər Statistika İdarəsinin inzibati binasının yenidən qurulması və əsaslı təmirinin layihə-smeta sənədlərinin hazırlanması üzrə işlərin satın alınması məqsədilə**

***KOTİROVKA SORĞUSU ELAN EDİLİR***

Kotirovka sorğusunda “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən satınalma prosedurunda iştirakı qadağan olunan hüquqi və fiziki şəxslər istisna olmaqla Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinin bölgüsü meyarları”nın təsdiq edilməsi haqqında” 2018-ci il 21 dekabr tarixli qərarına uyğun olaraq iri sahibkarlıq subyekti olmayan istənilən rezident və qeyri-rezident hüquqi və ya fiziki şəxslər, yaxud hüquqi şəxslər birliyi iddiaçı kimi iştirak edə bilərlər.

İddiaçılar “Kotirovka sorğusunun şərtlər toplusu”nu Dövlət Statistika Komitəsinin inzibati binasının yerləşdiyi Bakı şəhəri, İnşaatçılar prospekti 81 (otaq 317) ünvanından əldə edə bilərlər (əlaqələndirici şəxs Şahin Sadıqlı - Satınalmaların təşkili sektorunun müdiri, telefon: (012) 377-10-70, daxili: 22-64). Təkliflər 2021-ci il sentyabr ayının 24-ü saat 18.00-dək qəbul edilir. Təklif zərfləri 2021-ci il sentyabr ayının 27-si saat 10.00-da yuxarıda qeyd olunan ünvanda 516-cı otaqda açılacaqdır.

**Tender komissiyası**